# TƏRBİYƏ MƏSƏLƏLƏRİ

UOT 371

**Səadət Hüsü qızı Həsənova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

## KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM PROSESİNDƏ TƏRBİYƏSİ MÜHÜM BİR PROBLEM KİMİ

**Саадат Гусу гызы Гасанова**
*доктор философии по педагогике, доцент*
*Институт Образования Азербайджанской Республики*

## ВОСПИТАНИЕ ШКОЛЬНИКОВ МЛАДШЕГО ВОЗРАСТА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ КАК ОДНА ИЗ ВАЖНЕЙШИХ ПРОБЛЕМ

**Saadat Husu Hasanova**
*doctor of philosophy in pedagogy, assistant professor*
*Institute of Education of the Republic of Azerbaijan*

## EDUCATİON OF YOUNG STUDENTS İN THE LEARNİNG PROCESS AS AN İMPORTANT PROBLEM

**Xülasə.** Müəllif məqalədə kiçikyaşlı məktəblilərin təlim prosesində tərbiyənin mühüm bir problem olmasından bəhs edir. O, bu işdə müəllimin peşəkarlıq səviyyəsini müəyyənləşdirən amilləri qeyd etmiş, innovativ dərs mühitinin yaradılmasının təlimin keyfiyyətinə təsirini göstərmişdir.

***Açar sözlər:*** *tərbiyə, tərbiyənin formalaşması, təlim, peşəkarlıq, yenilik, milli şüur, sosial-pedaqoji irs, ənənə*

**Резюме.** В статье автор упоминает вопросы, которые необходимо решить для достижения профессионализма учителя. Он указал на факторы, определяющие уровень профессионализма учителя и подчеркнули влияние создания инновационной среды обучения на качество обучения.

***Ключевые слова:*** *воспитание, формирование воспитания, обучение, профессионализм, инновации, национальное сознание, социально-педагогическое наследие, традиция*

**Summary.** The author mentions the issues that must be solved to achieve teacher professionalism in the article He pointed out the factors that determine the level of professionalizm of the teacher and highlighted the impact of the creation of an innovative learning environment on the quality of the training.

***Keywords:*** *educators, educators formation, training, professionalism, innovation, national consciousness, the social-pedagogical inheritance, tradition*

Məktəblilərin tərbiyəsi pedaqogika və psixologiyanın mühüm problemidir. Bu həmişə ciddi tədqiqat obyekti olmuşdur. Kiçik yaşlardan başlı-başına buraxılan, tərbiyə olunmayan uşaqları sonralar tərbiyə etmək çətin olur. "Çətin tərbiyə olunan uşaqlar" ifadəsi də bunun əsasında formalaşmışdır.

Uşağın ilk tərbiyəçisi ailədir- ana-atasıdır. Ailə ilkin tərbiyə mənbəyidir. Deyiləni eşitmək, ona əməl etmək, başqa sözlə, adi qaydalara tabe olmağı uşaq məhz ailədə öyrənir. Özünəxidmət, ailə üzvləri, qohumlar, ətrafdakı yaşıdlarla ünsiyyət mədəniyyətinin ilkin bünövrəsi ailədə qoyulur. Uşaq rejimə də ailədə alışır.

Hər bir uşağın məktəbə gələnədək formalaşmasına ailə cavabdehdir. Bir çox uşaqlar şəhərlərdə və rayon mərkəzlərində məktəbəqədər müəssisələr tərəfindən əhatə olunur. Bu, vali-

deynləri övladının tərbiyəsi sahəsində vəzifələrdən azad etmir, lakin məktəbəqədər tərbiyə ocaqlarında ictimai tərbiyə, xüsusilə uşağın məktəbə hazırlanması üzrə iş daha məzmunlu təşkil edilir. Ona görə də ilkin tədris pilləsinin bütün yaşayış məntəqələrini əhatə etməməsi narahatlıq doğurur. Bütün uşaqların (heç olmasa əksəriyyətinin) bağçada məktəbə hazırlanmaları təmin olunmalıdır. Müasir dövrdə bir çox ölkələrdə uşaqların 85-90 faizi məktəbəqədər təhsillə əhatə olunur. Təcrübə göstərir ki, həmin mərhələni keçən uşaqlar daha tərbiyəli, əqli cəhətdən daha hazırlıqlı olurlar. Sağlam, fiziki, psixoloji cəhətdən hazırlıqlı uşaqlar intellektual hazırlığa asanlıqla yiyələnirlər.

Məktəb də uşağın tərbiyəsinə müəllim cavabdehdir. Nə üçün belə deyirik? Ona görə ki, kiçikyaşlı uşaqlarda formalaşmış xarakter xüsusiyyətləri öyrənildikdən sonra onların sistemə salınması, hamının tərbiyənin prinsiplərinə uyğun, cəmiyyətin, dövlətin tələblərinə müvafiq şəkildə tərbiyə olunması məktəbdən, müəllimdən gözlənir. Həm də ona görə ki, məktəbdə ictimai tərbiyənin imkanları artır. Uşaqların müəllimlə, sinif yoldaşları ilə, məktəbin kollektivi ilə təması, təlim prosesində, ayrı-ayrı dərslərdə, tənəffüslərdə, sinifdənxaric, məktəbdənkənar fəaliyyətdə tərbiyəvi tədbirlərdə iştirakı imkanları çoxdur.

Bunu nəzərə alaraq araşdırdığımız mövzunun başlıca məqsədlərindən biri kimi şəxsiyyətin tərbiyəsinin öyrənilməsi və inkişaf etdirilməsi prosesinin təşkili formalarını araşdırmaq məqsədi qarşıya qoyulmuşdur.

İnkişaf insanın keyfiyyətcə dəyişməsi və onun nəticəsidir. Tərbiyəvi cəhətdən inkişafın nəticəsi insanın sosial varlıq kimi fəaliyyət göstərməsidir. Sosial inkişaf insanın psixi, mənəvi və intellektual səviyyəsinin artmasında özünü göstərir.

Əgər insan özünü şüurun daşıyıcısı sayır və fəal fəaliyyət göstərməyə qabildirsə, o, şəxsiyyət hesab olunur. Adicə insan anlayışından fərqli olaraq şəxsiyyət anlayışı insanın elə keyfiyyətlərini göstərir ki, bu keyfiyyətlər başqa adamlarla ünsiyyətdə, ictimai münasibətlərdə formalaşır, qəbul olunur. Şəxsiyyət ictimai təcrübəni mənimsəməklə, cəmiyyətə maddi və mənəvi dəyərləri verməklə tanınır. Şəxsiyyət olmaq üçün insan fəaliyyətində, təcrübədə özünün təbiət tərəfindən bünövrəsi qoyulmuş və müəllimin köməyi ilə həyatda formalaşmış daxili aləmini açıb göstərir.

İnsanın inkişafı çox uzunsürən, mürəkkəb və ziddiyyətli prosesdir. Həyat boyu orqanizmdə dəyişikliklər baş verir. İnkişaf prosesinin xarakter xüsusiyyəti dialektik şəkildə kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə keçməsi kimi qəbul edilməlidir. Bu prosesin inkişafı haqqında fikirlər müxtəlifdir. Mütəxəssislərin bəziləri belə hesab edirlər ki, insanın inkişafı stixiyalı, idarə edilməyən, apontan şəkildə gedir. İnkişaf həyat şəraitindən asılı olmur, anadangəlmə güclə müəyyən edilir. İnkişaf insanın taleyindən asılıdır və heç kəs onu dəyişə bilməz. Bəziləri isə inkişafı canlı materiyanın keyfiyyəti, hərəkət qabiliyyəti ilə əlaqələndirirlər. İnkişafda köhnə məhv edilir, yeni yaradılır. Canlılardan fərqli olaraq həyata qeyri-fəal uyğunlaşan insan əməyi ilə özünün inkişafı üçün vasitələr yaradır.

Dərsdə müəllimin tərbiyəvi işi yaxşı təşkil etməsi şagirdləri həyatdakı əsas rola (vətəndaş, cəmiyyətin faydalı əməkdaşı, ailə həyatına) hazırlamalıdır. Bu istiqamətdə zəruri işlər ibtidai siniflərdən yerinə yetirilir. İbtidai siniflər böyüyən nəsildə çox keyfiyyətləri inkişaf etdirir.

İ.P. Podlasıy bir fikri çox yaxşı ifadə edir. Ona görə vətəndaşda aşağıdakı keyfiyyətlər daxildir: ölkəmiz, cəmiyyət, valideynlər qarşısında vətəndaşlıq borcunun – vəzifə hissinin yerinə yetirilməsi; milli qurur və patriotizm hissi; dövlətin Konstitusiyasına, dövlət hakimiyyət orqanına, ölkənin prezidentinə, dövlət simvollarına ( gerb, bayraq, himn) ; ölkənin milli dəyərlərinə, dilinə, mədəniyyətinə, adət və ənənələrinə hörmət, ictimai fəallıq; demokratik prinsiplərə riayət etmək; təbiətə ehtiyatlı münasibət, başqa adamların hüquq və azadlıqlarına hörmət; namusluluq, düzgünlük, həssaslıq, ürəyiyumşaqlıq; öz işi və hərəkəti üçün məsuliyyətlilik; beynəlmiləlçilik, başqa ölkələrin xalqlarına hörmət.

**Müasir işçinin keyfiyyətləri belədir:** intizamlılıq, cavabdehlik; işgüzarlıq, təşkilatçılıq; ümumi iqtisadi biliklər; siyasi biliklər; əməyə yaradıcı münasibət inadkarlıq, tapşırılmış işi sürətlə və keyfiyyətlə yerinə yetirmək; peşə qüruru, ustalığa şüurluluq, incəlik, mülayimlik, səliqəlilik, hörmət emosional məhsuldarlıq mədəniyyəti; əməyə, həyata, fəaliyyətə estetik müna-

sibət, kollektivçilik, birgə zəhmət çəkmək bacarığı; təşəbbüskarlıq; müstəqillik; ölkənin, cəmiyyətin naminə çox və məhsuldar işləməyə hazır olmaq, işgüzarlıq, əməyin nəticəsinə cavabdehlik; əmək adamlarına və istehsalat ustalarına hörmət və s.

İ.P. Podlasıy ailəçilik keyfiyyətlərini belə təsəvvür edir: əməksevərlik, məsuliyyətlilik; ehtiyatlılıq, mülayimlik, ünsiyyət mədəniyyəti; cəmiyyətdə özünü idarə etməyi bacarmaq; hərtərəfli savadlılıq; hüquq normaları və qanunları bilmək; praktik psixologiya və etikanı bilmək; uşaqları tərbiyə etmək bacarığı; ailə qurmağa hazırlıq, ailə vəzifələrini yerinə yetirmək; valideynlərinə, yaşlılara hörmət etmək.

Göründüyü kimi, İ.P. Podlasının nəzərdə tutduğu tərbiyə məsələlərinin əksəriyyətini təlim fənlərinin birində və bir neçəsində həyata keçirmək mümkündür.

Müşahidələr göstərir ki, həm valideynlər, həm də bəzi müəllimlər tərbiyə problemini ümumi mənada qəbul edir, onun incəliklərinə lazımınca bələd olmurlar. Tədqiqat prosesində bu cəhətə bir daha aydınlıq gətirməyə çalışacağıq.

"Tərbiyə olunma yolları" probleminin mahiyyəti nədən ibarətdir? Bu ifadə iki sahə üzrə işi əhatə edir;

– Müəllimin şagirdləri tərbiyə etməsi;

– Özünütərbiyə

Birinci cəhd geniş olmaqla müəllim fəaliyyətinin müxtəlif cəhətlərini əhatə edir. Müəllim təlim prosesində şagirdlərə bu və ya digər fənn üzrə proqramın məzmununa uyğun olaraq bilik, bacarıq və vərdişlər verməklə yanaşı həm də onların tərbiyəsi ilə məşğul olur.

Tərbiyə prosesi çoxcəhətli olmaqla insanın formalaşmasında əhəmiyyətli olan aşağıdakı məsələləri əhatə edir:

*vətənpərvərlik, Vətəni, onun təbiətini, təbii sərvətlərini sevmək;

* Vətəni qorumağa, onun uğrunda canından keçməyə hazır olmaq;

* azərbaycançılıq: Azərbaycanlıları, onların adət-ənənələrini və milli dəyərlərini sevmək;

* Azərbaycanlıların mənsub olduqları İslam dinini, onun dəyərlərini sevmək, onun sadə adətlərinə əməl etmək;

* valideynlərə dərin məhəbbət bəsləmək, ailə üzvlərinə hörmət, qayğı ilə yanaşmaq;

* cəmiyyətdə yaşlılara hörmət, körpələrə qayğı bəsləmək;

* məktəbdə yoldaşları və müəllimlərlə yüksək insani ünsiyyət saxlamaq;

* ünsiyyət prosesində normal nitq mədəniyyətinə əməl etmək;

* verdiyi sözə əməl etmək; düşündüyü ilə əməllərinin eyniliyini gözləmək;

* yalan danışmamaq, ünsiyyətdə olduqlarının hörmətini qazanmaq;

* oğurluq etməmək, nəfsi təmiz olmaq;

* dalaşmamaq, bunun üçün şərait yaratmaq;

* səhvini etiraf etmək, öz səhvini başqasının üstünə atmamaq;

* səhvinə, uğursuzluğuna görə ruhdan düşməmək, onu aradan qaldıra biləcəyinə inanmaq; müvəffəqiyyətinə görə lovğalanmamaq;

* başqasının uğursuzluğuna sevinməmək;

* başqasının pis vəziyyətə düşməsini arzulamamaq;

* ehtiyacı olanlara kömək etmək;

* vaxtının boş, işsiz keçməsinə yol verməmək;

* ev işlərində valideynlərə kömək etmək;

* kollektivdə öz yerini bilmək, kollektivin mənafeyinə çalışmaq;

* küçə uşaqlarına, oğru, alkoqola meylli şəxslərə qoşulmamaq;

* özünü tərbiyələndirməyi, öz "Mən"ini gözləməyi bacarmaq;

* özünü qiymətləndirməyi bacarmaq.

Axırıncı maddə problem baxımından o qədər də əhəmiyyətli görünməyə bilər. Yeri gəlmişkən ona münasibət bildirək.

Özünüqiymətləndirmə ciddi tərbiyəvi əhəmiyyət kəsb edir. Psixoloqların nöqteyi-nəzərindən özünüqiymətləndirmə şəxsiyyətin mənəviyyatı və fəaliyyətinin idarə olunmasında bilavasitə iştirakı olan prosesdir. Özünüqiymətləndirmə şəxsiyyətin fəal iştirakı ilə onun keyfiyyət xüsusiyyətlərini, daxili aləmini formalaşdırır. Beləliklə, özünüqiymətləndirmə əqli fəaliyyətin vacib şəxsi parametridir. Adekvat olmayan, tez-tez dəyişən özünüqiymətləndirmə şəxsiyyətin tədris fəaliyyəti və tərbiyəsinə mənfi təsir göstərir. Dərketmədə yenidənqurma şagirdin öz daxili aləmini açması, yeni baxışın əmələ gəlməsi ilə əlaqədardır.

Özünüqiymətləndirmə şagirdə öz hərəkətlərini təhlil etməyə, onlara ətrafdakıların gözü ilə baxmağa, müvafiq düzəliş aparmağa imkan verir.

Dərsin komponentləri arasında qarşılıqlı əlaqə mövcuddur. Bu, dərsin elmi təşkili deməkdir. Elmi yanaşma dərsin tam sistem kimi qəbul olunmasını tələb edir. Məhz buna görə tədris materialının məzmununun açılması, quruluşu, istifadə olunan metodlar və təşkilindəki çatışmazlıqlar onun keyfiyyətinə təsir göstərir. Belə amillərdən biri də dərsdə müvafiq tərbiyəvi işin getməməsidir.

Bu komponentlərin hər birinin düzgün təşkili müəllimdən böyük qüvvə və diqqət tələb edir. Dərsdə tədris-tərbiyə vəzifələrinin yerinə yetirilməsi müəllimin qarşısında vaxtdan maksimal istifadə olunmasını, sürətin, mərhələlərarası əlaqələrin düzgün təşkilini tələb edir. Belə yanaşma o zaman özünü doğruldur ki, şagirdlərin təlim fəaliyyətinin fəallaşmasını, idrak fəaliyyətinin inkişafını təmin etsin.

Dərsdə kollektiv əməyin təşkili böyük tərbiyəvi əhəmiyyətə malikdir. Müasir dərs öyrədilən materialın xarakterindən asılı olaraq orada işin böyük kollektivlə (bütün siniflə) , kiçik qruplarla, ( sinfi iki-üç qrupa ayırmaqla - 4-5 nəfərlik) qruplarla, cütlərlə və ya fərdi aparılmasını tələb edir.

Kollektivizm şəxsiyyətin ayrılmaz əlaməti və aparıcı keyfiyyətidir. Həyat, həmçinin dərsin gedişi böyüməkdə olan nəsildə cəmiyyətin maraqları ilə yaşamağa tələbat və bacarıq tərbiyə olunmalıdır. Kollektiv də öz növbəsində hər bir şagirdin inkişafını, çiçəklənməsini təmin etməlidir.

Uşaqda yerini müstəqil araşdırmaq motivi formalaşdırılmalıdır. Bunsuz elmə, biliyə məhəbbəti, tədrisin mahiyyətini başa düşmək, idrak marağı tərbiyə etmək mümkün deyil. Buna nail olmaq üçün ilk növbədə müəllim fənnin əhəmiyyətini, ümumiyyətlə, təlimin əhəmiyyətini açmalıdır.

Təhsilalanların tərbiyəsinin səviyyəsini qaldırmaq lazımdır ki, onun müvəffəqiyyəti məhz bundan asılıdır. Burada isə müəllim birinci dərəcəli fiqurdur. Hər şeydən əvvəl, belə bir məsələni müəyyənləşdirməliyik ki, məktəbə necə müəllim lazımdır: tədris etdiyi hər bir fənni bilən, uşaq psixologiyasından xəbərdar olan, uşağın etiketini, ləyaqətini öyrənən, yalnız mükəmməl bilik verməyi bacaran, yaxud ətrafdakı varlıqları yüksək dərəcədə anlayan müdrik müəllim-həyat müəllimi lazımdır.

Belə müəllim fənn üzrə biliklərdən başqa, mənəvi aləm haqqında biliyə də malik olmalı, həyatımızın müxtəlif sahələrində şəxsi təcrübəyə də yiyələnməlidir. Bundan əlavə o öz həyatını qurmaq üçün lazımi tələbata da nail olmalı, fiziki və mənəvi həyatında ahəngdarlıq yaratmalıdır.

Birinci tip müəllimə üstünlük verən az olar. Onlar düşünülmüş şəkildə, qayğıkeşliklə tərbiyə etməli, dövlət qurmalıdır. Bunun üçün istedadlı mühafizəçilər hazırlanmalıdır. Onlar müəllimlər qarşısında keçmiş müdrikliyin digər aspektləri insan həyatı haqqında aydın anlaşılan, maraqlı aspektləri insan həyatı haqqında aydın anlaşılan aspektləri açmalıdırlar.

Gələcək müəllimləri hazırlayan təhsil ocaqlarında tələbləri ilkin dini mənbələrlə, qədim filosoflar, onların həyatları ilə tanış edən fənn öyrənilməlidir. Belə tanışlıq gələcək müəllimlərdə fəlsəfəyə, onun sərbəst öyrənilməsinə maraq oyadar. Bu, onlara dünyanın daha panoramlı, irihəcmli və həyatı təsdiq edən mənzərəsini tərtib etməyə imkan verər. Qədim müdrikliyin düşünülmüş şəkildə öyrənilməsi müəllimin həyatını bəzəyir, təkmilləşdirir və böyüməkdə olan nəslin səmərəli tərbiyə olunmasına kömək edir. Qədim müdriklik özünütəkmilləşdirmə üçün onun səbəbini inandırıcı şəkildə əsaslandırır, ləyaqətli adamın keyfiyyətinin düşünülmüş şəkildə inkişafına stimul yaradır.

Müəllimə də, şagirdə də mənəviyyatın yaxud fikrin) gigiyenası haqqında bilik vermək faydalıdır. Dövlət bədənin gigiyenasına çox diqqət ayırır. Hər bir adam da gigiyenik qaydalara əməl etməlidir. Deməli, mənəvi tərbiyə ilə biologiya arasında əlaqə mövcuddur. Psixogigiyena hədsiz arzuların özünütəmizəçıxarma, alçalma, qıcıqlanma, kobudluq, yalançılıq, tənbəllik və s. halların zərərinə qarşı mübarizə aparır. Bu zaman yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Yaxşı olar ki, bu gün pedaqoji təmayüllü məktəblərdə ( hətta ali məktəblərdə) "etika" kursu tədris olunsun. Pedaqogika və psixologiyadan doğan belə bir kursun tədrisi tərbiyə probleminin əsaslı şəkildə həllinə kömək edə bilər. IV sinifdən başlayaraq tarix dərslərində dahi filosofların müdrik fikirlərinin öyrədilməsi vaxtı çoxdan keçmişdir.

Təfəkkürün inkişafına həsr olunmuş məşğələlərin təşkili xüsusi xarakter daşıya bilər. Çalışmaq lazımdır ki, şagirdlər belə dərslərdə yaddaşı, diqqəti bir istiqamətə yönəldə bilsinlər. Onda müşahidəçilik, dəqiqlik və axtarıcılıq metodlarını yerinə yetirə bilərlər. Belə məşğələlərdə təfəkkürü inkişaf etdirən əyləncəli tapşırıqlar olmalıdır. Bu materiallar riyaziyyat, dil, həyat bilgisi fənlərində daha geniş yer tuta bilər. Onlar əyləncə xarakteri daşımalıdır.

İstedadlı alim müəllimlər bu çətin məsələni yerinə yetirməlidirlər. Təsəvvürləri dumanlı olan müəllimlər bunu yerinə yetirə bilməzlər.

Cəmiyyətin savadlılığının səviyyəsinin yüksəlməsi müəllimin prestijinin aşağı düşməsinin başlıca səbəbidir. Ona görə dövlət müəllimlərin nailiyyətlərini təmin etməlidir.

Ali təhsilli şəxs fənləri yaxşı bilirsə, müdrik adam həyatı bilir. Müdriklik həmişə yüksək mədəniyyəti bildirir. Platon hər bir adamda müdrikliyin zəruriliyindən bəhs edərək demişdir: "Müdriklik bütün insanlara xoşbəxtlik gətirir. Müdriklik insanı düzgün hərəkət etməyə, hər şeyə nail olmağa məcbur edir... Görünür, bütün insanlar var gücləri ilə müdrik olmağa cəhd etməlidirlər" ( Платон. Антология гуманной педагогики. М., 2000).

İbtidai siniflərdə təlim şagirdlərin yalnız intellektual təcrübə, əşyalar aləmi haqqında biliklər, universal tədris əməliyyatının mənimsənilməsini deyil, həm də insanların mənəvi qaydaları gözləmələrini, qarşılıqlı münasibətlərini, başqa sözlə, etik-estetik təcrübəni təmin edir. Müasir dövrdə məktəbdə şagirdlərin intellektual inkişafına böyük yer ayrılır. Fənn olimpiadaları, müsabiqələr, intellektual oyunlar həqiqətən tədris fənlərinə marağı, şəxsi nailiyyətə cəhdi inkişaf etdirə bilər.

Bu gün məktəbdə tərbiyə işində ciddi dəyişiklik aparılmalıdır.

Kompyüter oyunlarının, televiziya verilişlərinin, kinofilmlərin şagirdlərə mənfi təsiri özünü göstərir. Apardığımız müşahidə və tədqiqat işləri göstərir ki, məktəblilər əməyə deyil, əyləncəyə yönəlmişlər. Müasir dövrdə dəyərlər dəyişdirilmişdir. Beləliklə, məsuliyyət, şəxsi fikir, əməyə məhəbbət yoxdur.

Valideynlərin həddən artıq qayğıkeşliyi, himayədarlığı ona gətirir ki, uşaqlar hər şeyi hazır şəkildə almaq istəyirlər. Nəticədə onlar eqoist böyüyür, qayğının əvəzində "sağ ol" deməyi unudurlar. Artıq ibtidai siniflərdə uşaqlar bilirlər ki, oxumaq lazım deyil, onların inkişafı, ali məktəbə qəbulu, iş yerinin tapılması qayğısına valideynləri, qohumları qalacaqlar. Təəssüflər olsun ki, tərbiyə adı altında xüsusi tədbirlər sistemi (dərs saatları, gəzintilər, müsabiqələr və s.) nəzərdə tutulur. Şübhəsiz onlar şagirdlərə təsir edir, lakin xatırlamaq lazımdır ki, əxlaqi inkişaf gündəlik tədris fəaliyyətində baş verir. Bu isə kiçikyaşlı məktəblilər üçün aparıcı fəaliyyətdir. Tədris fəaliyyəti nə qədər dəqiq təşkil olunarsa, müəllim öz tələbələrində ardıcıl olar, özünün əxlaqi mövqeyini aydın ifadə edər. Tərbiyə bundan asılıdır.

Tərbiyə nəticəsində aşağıdakı vəzifələr formalaşır:

*şagirdlərin əsas əxlaqi anlayışlarla ( xeyirxahlıq, dostluq, vicdanlıq, düzgünlük vəzifənin yerinə yetirilməsi, həqiqətpərəstlik, hörmətçillik, əməksevərlik və s.) tanışlığı;

*sinifdə əxlaqi-sağlam atmosferin yaranması;

*şagirdlər tərəfindən tədris fəaliyyətinin mahiyyəti və mənasının dərk edilməsi;

*təhsildə daxili motivasiyasının inkişafı;

*hisslərin inkişafı, bütün canlılara ehtiyatlı münasibətin tərbiyəsi;

*valideynlərin öz övladlarının tərbiyəsi prosesinə cəlb olunması.

Ədəbi əsərləri öyrənməklə, real hadisələrə baxmaqla, insanların hərəkətlərini qiymətləndirərək biz diqqətli davranış motivinə yonəldirik.

Uşaq məktəbdə oxumağa başlamaqla müəllimlə münasibətə girir. Müəllimlər I-lər üçün qaydalar tərtib edirlər:

– müəllimi dinlə;
– suallara cavab ver;
– səliqəli ol;
– yoldaşının köməyinə çat;
– dalaşma və heç kimi incitmə.

Dərs ilinin axırında aşağıdakıları da əlavə edirlər;

– mənəm-mənəmlik etmə;
– dost tapdın, onu qoru;
– təlimdə cəhd göstər;
– qiyməti soruşma.

Qeyd edək ki, sinifdə etibar atmosferi yaratmaq vacibdir. Müəllim uşaqlara dost və köməkçi olmalıdır. Şagirdlər özlərini təhlükəsiz

hiss etməlidirlər. Münaqişə qalxdıqda başlıca odur ki, müəllim onun səbəbini öyrənməli, şagirdə kömək etməli uşaqlara, öz hərəkətinin motivini dərk etməyi, münaqişənin gedişini (nə vaxt ondan qaçmaq olardı), onun hər bir üzvünün nə hiss etdiyini öyrənmək, bir sözlə, münaqişəni əvvəlcədən görmək lazımdır. Sağlam atmosferin yaranması üzərində işləyərkən şagirdlərin bir-birini dinləmələri təmin olunmalıdır.

İlk günlərdə uşaqların tanışlığının təmin olunması onların münasibətlərinin, ümumiyyətlə, tərbiyəsinin əsasının düzgün qoyulmasını təmin edir. Tanışlıq təbii şəraitdə, bir birindən nəyi isə öyrənmək şəraitində, birgə oyun və əmək prosesində təşkil edildikdə səmərəli olur. Hərəkətli oyunlar, yapma, rəsmetmə, applikasiya, uşaqların fotolarına həsr olunmuş stendlər üzrə işlərin yerinə yetirilməsi prosesində tanışlıq maraq doğurur.

Məktəbin vəzifəsi valideynlərin ümumi köməyi ilə insan tərbiyə etməkdir. İnamı, şəxsi görüşləri, hissləri, adət və vərdişləri olan insan formalaşdırmaqdır.

Ev tapşırıqları yerinə yetirilərək müstəqilliyin tərbiyə olunması çox mühümdür.

Ailədə oxunmuş hər hansı bədii əsərin, baxılmış filmin qəhrəmanının hərəkətlərindən nəyin uşağın xoşuna gəlməsi xəbər alınmalı, ona yiyələnməyin yolları üzərində iş getməlidir. Oxunmuş ədəbiyyat uşağın şəxsi mədəniyyətinin səviyyəsini, siyasi hazırlığını yüksəltməlidir. Ailənin, məktəbin, əlaqədar müəssisənin avadanlıqlarının qorunması istiqamətində tərbiyə xüsusi əhəmiyyət kəsb edir. Məktəblilər böyüyərkən işlədikləri bütün müəssisələrdə işləyərkən var gücü ilə dövlətin varlıqlarını qoruyacaqdır. Kiçikyaşlı uşaqların öz kitab dəftərlərini, oyuncaqlarının qorumaları ilə başlanan bu iş sonralar heç kəsin göstərişi olmadan təbii şəkildə gedir. Uşaqlar hər şeyə hörmətlə yanaşmağı, onları qorumağı öyrənirlər.

İşi namusla yerinə yetirmək, fəal olmaqla yanaşı, uşaqlara təşəbbüskarlıq, kəşf etmək, adamlara öz məhəbbətini sübut etmək də öyrədilməlidir.

Uşaqlar elə tərbiyə olunmalıdırlar ki, öz təşəbbüsləri ilə yoldaşlarına, xüsusilə əlillərə, qocalara kömək göstərmək onların həyatında adi hala çevrilsin. Bu, humanizm tərbiyəsinin başlanğıcı hesab olunur. Tərbiyə işində uşaqlarda təşkilatçılıq, dəqiqlik, incəlik, mülayimlik, xüsusilə nümunə göstərmək faydalıdır.

Apardığımız müşahidə göstərdi ki, dərsdə diqqətli gözləri az görürsən. Uşaqlarda həyati güc görünmür. Onlar düşünmədən "belə istəyirəm" nəticəsinə gəlirlər. Məktəbə oxunmaq həvəsi ilə gələn uşaqlar ilk çətinliklə rastlaşan kimi (rejim, oyunun ixtisarı, elementlərin yazılması və s.) arzuları sönür, çünki ailədə iradə, intizam tərbiyə olunmur. Bu, ondan irəli gəlir ki, valideynlərə lazımi məsləhətlər verilmir: "Birincilər üçün rejim", "Şagirdə oxumağı necə öyrətmək lazımdır?", "İradəni inkişaf etdirmək", "İntizam və xarakter" mövzularda izahata ehtiyac var.

Dərsdə əxlaqi keyfiyyətlər mənimsənilir. Bu əməliyyat əqlin, hisslərin (vəzifə, utancaqlıq, vicdan, sevinc ), əxlaqi keyfiyyətlərin ( əməksevərlik, səy, irad, inadkarlıq, məsuliyyətlilik, əməkdaşlıq) təmin olunmasında özünü göstərir.

Humanist tərbiyəyə üstünlük verilməlidir. Belə təhsilin əsas məqsədi təhsil alan şəxsiyyətin əxlaqi inkişafıdır. İndi cəmiyyətin inkişafı üçün şəxsiyyətin namusluluq, məsuliyyətlilik, vəzifə borcu, əməkdaşlıq, insanlara xidmətə cəhd keyfiyyətləri lazımdır. Təlim - yalnız şagirdin əxlaqi keyfiyyətlərinin formalaşdırılmasının şərti və vasitəsi deyil, bütövlükdə insanın psixi inkişafıdır.

**Problemin aktuallığı.** Müəllimin sadalanan peşəkarlıq komponentlərinin ən başlıcası onun təlim prosesində kiçikyaşlı məktəblilərin tərbiyə işini səmərəli qura bilmək bacarığıdır. Dərin biliyə, səriştəyə malik müəllimin təliminin uğurlu olması da elə bu komponentdən başlayır. Odur ki, hər bir fənn kiçikyaşlı məktəblilərə bilik verməklə yanaşı, həm də onları tərbiyə etməlidir.

**Problemin elmi yeniliyi.** Kiçikyaşlı məktəblilərin təlim prosesində tərbiyəsi bir problem kimi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən təkliflər və nəticələr kiçikyaşlı məktəblilərin təlim prosesində tərbiyəsi probleminin həllində istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Kərimov, Y.Ş. Təhsilin aktual problemləri / Y.Ş. Kərimov. -Bakı: Mütərcim, -2007.
2. Сетко, Е.К. Современные образовательные технологии / Е.К. Сетко. -Москва: Просвещение, -1998.
3. Həsənova, S.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkilinin nəzəri və praktik problemləri (şərikli). -Bakı: Mütərcim, -2011.
4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. -Bakı, - 2013.
5. "Azərbaycan -2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası. 2012-ci il.

**E-mail:** hasanovaseadet51@ gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub:** 18.05.2021